# İXTİSASARTIRMA TƏHSİLİNİN MÜASİRLƏŞDİRİLMƏSİ VACİBDİR

**S.A.AĞAYEV**
***Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu***
***sabiragayev@mail.ru***

*Məqalədə ixtisasartırma təhsilinin təkmilləşdirilməsinin vacibliyindən bəhs olunur.*

Bilik də, metodika da hər şey kimi köhnəlir. Buna görə də ixtisasartırma təhsili bütün mütəxəssislər üçün zəruridir. Bu, birinci növbədə, pedaqoji kadrlara aiddir.

Xüsusilə, keçmiş sovet məkanına daxil olan ölkələrdən biri kimi bizim respublikamızın pedaqoji kadrlarına. Əvvəla, ona görə ki, burada hər şey kommunist diktaturasının tələblərinə uyğun qurulduğundan çox şey, xüsusilə tariximiz, mədəniyyətimiz, dinimiz və s. o dövrdə təhrif olunmuş, saxtalaşdırılmışdır. Bu yalanlar, böhtanlar həqiqət kimi qələmə verilmiş və bizə öyrədilmişdir. Təlim texnalogiyaları, xüsusilə sosial fənlərin tədrisi metodu on illər boyu dəyişməmiş–yaddaşa, hafizəyə əsaslanmışdır. Axı, ağıla, təffəkkürə əsaslanan təlim texnologiyaları kommunist rejimi üçün təhlükəli idi.

İkinci, ona görə ki, onlar daim inkişafda və çox mütəhərrik olan uşaqlarla işləyirlər. Bu uşaqlar hər gün yeni informasiya almaq, yaxud aldıqları informasiyanı təhlil etmək, yeni biliyə yiyələnmək üçün müəllimlərə onlarla ‹‹niyə?››, “nə üçün?” sualları ilə müraciət edirlər. Bu suallara ya bilavasitə, ya bilvasitə cavab verməkdə ixtisasartırma təhsili onlara kömək etməlidir.

İxtisasartırmanın mövcud formalarına pedaqoji kadrların münasibəti müxtəlifdir. Bu da təbiidir. Onun mövcud vəziyyətindən müəllimlərin çox hissəsi narazı deyil, bir hissəsi onun təkmilləşdirilməsini, müasirləşdirilməsini istəyir, amma bunun konkret yolunu göstərə bilmir. Buna görə, də ancaq ixtisasa aid olmayan bəzi mövzuların (onların əksəriyyətinə çox az-2 saat vaxt verilsə də) çıxarılmasını istəyirlər. Lakin təəssüflə deməliyik ki, məktəb rəhbərlərinin, xüsusilə metodik mərkəzin işçilərinin əksəriyyətinin ixtisasartırma təhsilinin müasirləşdirilməsinə aid təkliflər vermədikləri bir yana dursun, bu mühüm məsələyə ögey, laqeyd münasibət bəsləyirlər. Bunun bir günahı onların özündədir. Çin filosofu Konfutsi deyirdi ki, əsl bilik təkcə bildiyin şeyi bilmək deyil, bilmədiyin şeyi də bilməkdir.

İnsan öz işi, vəzifəsi ilə əlaqədar nələri bilmədiyini bilirsə, işinin, vəzifəsinin öhdəsindən gələ bilmək üçün vacib olanları bilməyə, öyrənməyə çalışacaq. Amma nəyi bilmədiklərini bilməyənlər isə, elə hesab edirlər ki, malik olduqları biliklər vəzifələrinin öhdəsindən gəlmək üçün yetərincədir. Onlara artıq heç nə lazım deyil, eləcə də ixtisasartırma təhsili.

Digər günah isə ixtisasartırma təhsili müəssisələrindədir. Bunların günahı birincilərin günahından heç də az deyil. Bu günah ixtisasartırma təhsilinin məzmununun müasir tələblərə elmi-metodik cəhətdən tam, dolğun şəkildə cavab verməməsindədir. Məhz ixtisasartırma təhsilinin təkmilləşdirilməsi, müasirləşdirilməsi dövrün, zamanın tələbidir (4, 381). İxtisasartırma sisteminin müasirləşdirilməsi mürəkkəb prosesdir. Bu sahədə ixtisasartırma institutlarının, o cümlədən BPKİYİ-nin kifayət qədər təcrübəsi vardır. Ancaq bu təcrübə yaradıcılıqla daha da zənginləşdirilmirsə, sadəcə olaraq əsasən ənənələri davam etdirirsə, əlbəttə, o müasir dövrün tələblərinə cavab verə bilməyəcək. Buna görə də BPKİYİ malik olduğu böyük təcrübəni zənginləşdirmək, yaradıcılıqla inkişaf etdirmək üçün Avropanın bir neçə universiteti ilə bağladığı müqavilələr əsasında onlarla birlikdə ixtisasartırma təhsilinin müasirləşdirilməsinə aid tədbirlər keçirmişdir (2, 381). Bu tədbirlər ixtisasartırma təhsilinin səmərəliliyinin artırılmasına, keyfiyyətinin yüksəldilməsinə, dövrün tələbləri səviyyəsində qurulmasına öz müsbət təsirini göstərmişdir. Lakin bu heç də o demək deyil ki, bizdə hər şey qaydasındadır, heç nəyə ehtiyacımız yoxdur.

Yeni təlim texnologiyalarını öyrənməyə, onlara yiyələnməyə indi müəllimlərin böyük ehtiyacları var. Etiraf edək ki, biz onların bu tələblərini həmişə lazımi səviyyədə ödəyə bilmirik. Bəzən interaktiv təlim metodunu məzmunsuz oyuna çeviririk. Belə hallara ‹‹Söz assosiasiyasından istifadə››, ‹‹Dərs-diskussiya››, ‹‹Rolu oyun›› və s. dərslərdə tez-tez rast gəlmək mümkündür. Bu cür hallar yaxşı müəllimlərdə haqlı olaraq belə dərslərə və bu yolla bayağılaşdırılmış metoda qarşı mənfi münasibət yaradır (3, 303). Demək, ixtisasartırma sisteminin müasirləşdirilməsinə birinci növbədə biz özümüzdən başlamalıyıq. Gərək özümüz interaktiv təlim metodunun formasına yox, məzmununa bələd olaq, onun mahiyyətini dərk edək ki, onu ixtisa-

sartırma təhsili kurslarının dinləyicəilərinə öyrədə bilək. Yeni təlim texnologiyalarının mahiyyətinə bələd olmadıqlarına görə bəziləri bu fikirdədilər ki, yeni təlim texnologiyaları dərsin elmi-metodik tələblərini artiq hesab edir. Əksinə, yeni təlim texnologiyaları bu tələblərə, prinsiplərə xususi diqqət verir. Əgər belə olmasaydı şagirdə subyekt kimi baxılardımı? Şagirdlərdə tənqidi təfəkkürün formalaşdırılmasına, onların tədqiqatçılıq fəaliyyətinə xüsusi diqqət verilərdimi? Qətiyyən yox!

İxtisasartırma sisteminin müasirləşdirilməsi ona görə mürəkkəb prosesdir ki, burada ixtisasartırma müəssisələri ilə ümumtəhsil məktəbləri arasında sıx əməkdaşlıq olmalıdır. Bu əməkdaşlıq interaktiv təlim metodunun özü kimi möhkəm qarşılıqlı təsirə əsasalanmalıdır. Məktəb tələbkar sifarişçi olmalıdır. Məktəb rəhbərləri köhnəlmiş təlim metodlarına qarşı mübarizə aparmalı, ixtisasartırma kurslarına göndərdikləri müəllimlərdən yeni təlim texnologiyaları əsasında dərs deməyi tələb etməli, fənnin tədrisi metodikasına aid məşğələlərə ara-sıra, imkan daxilində nəzarət etməlidirlər. Məşğələlərin pulunu ixtisasartırma müəssisələri ödəsələr də, sifarişçi məktəbdir. Amma onlar hələlik nə institutlardan, nə də öz müəllimlərindən bu haqda çox az şey tələb edirlər.

Məktəb rəhbərlərinin ixtisasartırma təhsili kurslarından keçməsinin mövcud forması və məzmunu dəyişdirilməlidir. Onlara bu kurslarda əsasən idarəçiliyə aid məlumatlar verilir. Məgər məktəbi idarə etmək ancaq sənədlərin tərtibatından, onun düzgün aparılmasından ibarətdir? Bizə belə gəlir ki, məktəbə elmi-metodik rəhbərlik inzibati rəhbərlikdən çox-çox çətindir. Axı, onlar müəllimlərin dərslərini dinləməli, bu dərsləri təhlil etməli və müəllimlərə əməli kömək göstərməlidirlər. Doğrudur, məktəb rəhbərləri arasında alimlər də, əməkdar müəllimlər də, ‹‹Ən yaxşı fənn müəllimi›› müsabiqəsinin qalibləri də, proqram və dərslik müəllifləri də var. Elə direktorlar da var ki, bu titullardan heç birinə malik olmasalar da, həm tədris etdikləri fənni yaxşı bilirlər, həm də yeni təlim texnalogiyalarına yaxşı bələddirlər, ona lazımı səviyyədə yiyələniblər. Təəssüf ki, belə məktəb direktorları sayca hələ çox deyil. Əgər məktəb direktorları yeni təlim texnologiyalarını bilmirsə, dərsi necə təhlil edəcəklər, müəllimlərə necə kömək göstərəcəklər, istiqamət verəcəklər? Təlim prosesini necə idarə edəcəklər? Buna görə də, məktəb rəhbərlərini ixtisasartırma təhsilinə cəlb edərkən ya eyni ixtisasdan olanlar seçilməli və idarəçilikdən əlavə onlar üçün həmin fənnin tədrisi metodikasına və nəzəriyyəsinə aid məşğələlər təşkil edilməlidir, ya da onlar fənn müəllimi kimi də ixtisasartırma kurslarına cəlb olunmalıdırlar.

Bütün ixtisasartırma kurslarında müəllimlərin pedaqoji və psixoloji hazırlığına aid məşğələ saatları da var. Lakin çox zaman bu məşğələlər elə aparılır ki, sanki bunların müvafiq fənnin nəzəri və xüsusilə tədrisi metodikası ilə heç bir əlaqəsi yoxdur. Bu, psixologiyaya aid məşğələlərdə özünü daha qabarıq göstərir. Görünür, çoxumuza yaxın, doğma olan "psixologiya elə bir bilik sahəsidir ki, onsuz nə təhsil, nə də inkişaf ola bilər" fikri onlar üçün ögeydir, yaddır.

Yeni təlim texnologiyalarının psixologiyaya istinad etməsi və onun görkəmli müəlliflərinin psixoloqlar olması təsadüfü deyil. Psixologiyaya aid məşğələlərdə bu dərsi deyən müəllim heç olmasa empirik və nəzəri təfəkkürün fərqini göstərsin, izah etsin. Orta ümumtəhsil məktəblərinin müəllimlərinə aydın olsun ki, ənənəvi metod adətən empirik təfəkkürə əsaslanır, çünki burada hadisələr təsvir olunur. Nəzəri təfəkkür isə hadisənin mahiyyətini əks etdirir. Təsvir etməyi hamı, o cümlədən şagirdlər də bilirlər və bacarırlar. Müəllim təsvirçilikdən əl çəkməli, hadisələrin mahiyyətinə varmağı bacarmalıdır (5, 361). Axı, hələ XV əsrdə ərəb filosofu Əbdürrəhman İbn Xəldun tarix yazmağı sadəcə olaraq hadisələrin qeydə alınması olduğuna qarşı çıxmış və tarixin əsas vəzifəsini tarixi hadisələri törədən səbəbləri öyrənib müəyyənləşdirməkdə və onları izah etməkdə görmüşdür.

İxtisasartırma sisteminin müasirləşdirilməsinə aşağıdan-məktəbdən başlamaq lazımdır. Təhsil islahatının həyata keçirilməsində əsas qüvvə müəllimlərdir. Çünki islahatın kökündə yeni təlim texnologiyalarına yiyələnmək durur. Bizdə isə müəllimlərin əksəriyyəti, bir qayda olaraq ənənəvi təlim metodları ilə dərs deyirlər. Bəzi məktəb rəhbərlərinin və metodik mərkəzin işçilərinin əksəriyyəti nəinki bu vəziyyətlə barışır, hətta bəs, "elə belə də olmalıdır" deyirlər.

Yeni təlim metodları ilə ara-sıra dərs deyən müəllimlər də onu düzgün tətbiq etmirlər.Onlar tapşırıq tərtib etməyi bacarmırlar. Tapşırıq əvəzinə şagirdlərə adi, cavabı mətnin icərisində hazır olan və yaddaşa əsaslanan suallar verirlər. ‹‹Dərs-diskussiya››da, ‹‹Debat dərsləri››ndə əksəri vaxtlarda mövzunun öyrədilməsi unudulur. Halbuki dərsin başlıca komponenti olan mətn şagirdlərə öyrədilməlidir.

Müəllim keçəcəyi mövzunu əvvəlcədən ssenariləşdirmədən, ssenari ilə şagirdləri tanış etmədən həmin mövzu üzrə rollu oyun dərsi təşkil edir. Ancaq bir neçə şagird – rolların ifaçıları hadisələrin mahiyyətinə varmadan, oynadıqları rolların məqsədlərini dərk etmədən, necə deyərlər, onların sözlərini sadəcə olaraq təkrar edirlər.

Tarix dərslərində sənədlərdən istifadə müəllimin fasilitatorluğu və şagirdlərin tədqiqatçılığı üçün xüsusi əhəmiyyət kəsb edir. Müəllim şagirdlərə sənədlərə tədqiqatçı gözü ilə baxmağı, onlara tədqiqatçı kimi yanaşmağı öyrətməlidir (2, 158). Bunun üçün o, şagirdlərinə elə tapşırıqlar verməlidir ki, şagirdlər bu tapşırıqları yerinə yetirmək

üçün tədqiqat işi aparmalı olsunlar və tapşırığı yerinə yetirdikdən sonra öz tədqiqatlarının nəticəsinə görə sevinsinlər. Belə müəllimlərə də hələlik çox az təsadüf edilir.

Yeni təlim metodu ilə dərs keçən müəllimlərin çoxu şagirdlərin biliklərini ənənəvi üsulla qiymətləndirirlər. Çünki onlar yeni təlim texnologiyalarına aid qiymətləndirmənin meyarlarını və prinsiplərini gözləmirlər. Bütün bunların bir günahı da, yuxarıda qeyd edildiyi kimi, ixtisasartırma təhsili müəssisələrindədir (3, 178).

Onu da qeyd etmək gərəkdir ki, müvafiq mətbuatda da yeni təlim texnologiyaları ilə əlaqədar səhv, yanlış, müəllimləri çaş-baş salan yazılara, məqalələrə də rast gəlmək olur. Problemin nə olduğunu bilməyən, problemin mövcudluğu üçün hansı şərtlərin olmasından xəbəri olmayan müəllim mətndə hazır cavabı olan bir sualı problem kimi təqdim edir. Bunun bir günahı belə məqalə müəllifləri olan müəllimlərdirsə, digər günahı bu yazıları dərc edən müvafiq mətbuat orqanlarıdadır. Çünki indi təhsilə aid mətbuatda işləyənlərin əksəriyyəti yeni təlim texnologiyalarına dərindən bələd deyillər. Bir də görürsən çap olunmuş yazılarda müəllimin bildiyi metodların adları sadalanır və bir dərsdə onun bir neçə mürəkkəb metodu tətbiq etdiyi gösərilir. Axı, bu ağlabatan deyil.

Deyirik ki, ənənəvi təlim metodunun ən çox çatışmayan cəhətlərindən biri şagirdlərdə bacarıq formalaşdıra bilməməyimiz olub. Bacarığın nə olduğunu bilən və bunu şagirdlərində formalaşdırmağı bacaran müəllim yeni təlim texnologiyalarına aid metodları sadalamaz, bunu konkret bir mövzuya tətbiq edər. Beləliklə o, həm şagirdlərində lazım olan bacarıqları formalaşdırar, həm də onun məqaləsini oxuyan müəllimlər bu yazıdan bir şey öyrənə bilərlər. Mətbuat da elə bunun üçün lazımdır.

İxtisasartırma sisteminin müasirləşdirilməsi möhkəm əməkdaşlığa və tələbkarlığa söykənən qarşılıqlı təsirə, məktəblərin ixtisasartırma institutlarına, ixtisasartırma müəssisələrinin məktəblərə təsirinə əsaslanmalıdır. Təəssüf ki, hələ bu əlaqələr istənilən səviyyədə deyil və çox dəfə birtərəflidir.

İxtisasartırma təhsilinin müasirləşdirilməsi ilə bağlı təkliflərim:

1. Ixtisasartirma təhsili kurslarının təlimin məqsəd və vəzifələrini, məzmun və metodlarını özündə ehtiva edən yeni proqramları hazırlanmalıdır.
2. İxtisasartırma təhsili ilə əlaqədar kursların dinləyicilərinə verilən tələblər müəyyənləşdirilməli və bunun əsasında standartlar hazırlanmalıdır.
3. İxtisasartırma təhsili təkcə nəzəri və metodik biliklərin verilməsindən ibarət olmayıb, daha çox, xüsusilə də ictimai elmlərdə izahların axtarılmasından ibarət olmalıdır.
4. Kurslarda nəzəriyyəyə və fənnin tədrisi metodikasına aid məşğələlər empirik tərzdə aparılmamalıdır, nəzəri təfəkkürə geniş meydan verilməlidir.
5. İxtisasartırma təhsilinin müasirləşdirilməsinə ixtisasartırma institutları özlərindən başlamalıdır: müəllimlərin elmi-nəzəri və pedaqoji-psixoloji səviyyəsi yüksəldilməlidir
6. Pedaqogikaya, xüsusilə psixologiyaya aid mövzular və məşğələlər fənlərin tədrisi metodikası ilə üzvi şəkildə əlaqələndirilməlidir.
7. Məktəb rəhbərlərinin ixtisasartırma təhsili kurslarından keçməsinə və zaçot qəbuluna münasibət əhəmiyyətli dərəcədə dəyişdirilməli, tələbkarlıq artırılmalı, zaçot formal xarakter daşımamalıdır.
8. İxtisasartırma kurslarını bitirən müəllimlərin dərslərini dinləməklə ixtisasartırma təhsilinin səmərəliliyinin səviyyəsi öyrənilməlidir.
9. Elmi-nəzəri məsələlərə aid məşğələlər də yeni təlim texnologiyaları əsasında aparılmalıdır.
10. Bütün məşğələlər təklifyönümlülükdən tələbyönümlülüyə, məzmunyönümlülükdən nəticəyönümlülüyə üz tutmalıdır.

## ƏDƏBİYYAT


1. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri: Müəllimlər üçün vəsait. İREX. Bakı: 2006, 475 s.
2. Sultanov O., Bəşirov Q., İsgəndərov T., Ağayev S. Orta əsrlər tarixi: Didaktik materiallar: VII sinif üçün. Bakı: Nurlan, 2008, 303 s.
3. Sultanov O.B., İsgəndərov T.F., Bəşirov Q.İ., Xəlilov R.Z., Ağayev S.Ə. Qədim dünya tarixi: Dərs vəsaiti. Bakı: Nurlan, 2010, 209 s.
4. Məlikov Rauf , Nəcəfli Tofiq. Tarixin interaktiv təlimi. Bakı: 2002, 127 s.
5. Əliyev Hökumə. Yeniyetmə şəxsiyyətin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu. Bakı: Təhsil, 2009, 159 s.


## ВАЖНОСТЬ ПОВЫШЕНИЯ КВАЛИФИКАЦИИ И МОДЕРНИЗАЦИИ ОБРАЗОВАНИЯ


**С.А.АГАЕВ**


**РЕЗЮМЕ**

В статье говорится о том, что как сами знания, так и методы их преподавания со временем устаревают. Поэтому вся система повышения квалификации и переподготовки педогогических кадров нуждается в постоянном обновлении и модернизации.

**THE IMPOTANCE OF MODERNIZATION OF EDUCATIONAL QUALIFICATION**

**S.A.AGAYEV**

**SUMMARY**

The article acknowled ges that all the system of qualifiying and training pedagogical specialists needs constant renewal and modernization as both knowledge and methodology turn obsolete.